**UOT 94 (479.24)**

# HAKİMİYYƏT ORQANLRININ KÜTLƏVİ REPRESSİYA SİYASƏTİ

**N.Z.MƏMMƏDOV**
***Bakı Dövlət Universiteti***
***nurumammadov@mail.ru***

*Məqalədə aprel çevrilişindən sonra sovet hakimiyyət orqanlarının milli ziyalılara, milli kadrlara və bütün Azərbaycan xalqına qarşı apardığı amansız repressiya siyasəti, on minlərlə günahsız adamların təqiblərə məruz qalması, həbsi və güllələnməsi konkret faktlarla tədqiq edilir. Tədqiqatlar zamanı 30-cu illərin ölüm siyahılarına diqqət verəndə insan dəhşətə gəlir. Belə nəticəyə gəlmək olur ki, bolşevik-daşnak hökumətinin başlıca məqsədi sistemli-planlı şəkildə Azərbaycan xalqına qarşı qlobal miqyasda əsil soyqırım siyasəti aparmaq olub. Tədqiqatlardan aydın olur ki, 1920-1930-cu illərdə Azərbaycanda 250 mindən çox adam (kişi) güllələnib. Bu, xalqımıza qarşı soyqırım siyasətidir.*

**Açar sözlər**: Azərbaycan xalqı, hakimiyyət orqanları, cəza orqanları, təqiblər, repressiyalar, soyqırım, günahsız adamlar

Aprel çevrilişi ilə inqilabi tədbirlərin həyata keçirilməsi pərdəsi altında namuslu və vicdanlı insanlara qarşı, xüsusilə azərbaycanlı milli kadrlara və ziyalılıra qarşı amansız xaç yürüşlərinə başlandı. Oktyabr çevrilişindən sonra üçillik idarəetmə təcrübəsinə malik olan bolşeviklər Sovet Rusiyasında olduğu kimi, Azərbaycanda da «insan ovuna» çıxdılar və yeni yaradılmış sovet-inqilabi orqanlarının qəddar əli ilə, onlar yaramaz formada qırmızı terrora başlayıb, saysız-hesabsız soydaşlarımızı «buğda dəni kimi üyütməyə» (6, 3) rəvac verdilər. Bolşeviklər hakimiyyəti ələ keçirdikləri ilk gündən xalqımıza qənim kəsildilər, Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərlərini, görkəmli partiya və dövlət rəhbərlərini, tanınmış ziyalıları, şair və yazıçıları, mütəxəssis kadrları, hərbçi generalları və zabitləri, el ağsaqqallarını, din xadimlərini, böyük hörmət və nüfuz sahiblərini məhv etmək siyasətinə rəvac verdilər. Yerə-göyə sığmayan belə insan fəlakətləri XX əsrin ən dəhşətli və Azərbaycan xalqına qarşı təşkil edilən əsil soyqırım siyasəti kimi qeyd edilməlidir.

Həmin dövrün ictimai-siyasi təhlilini və mövcud durumunun vəziyyətinin aydın və konkret xarakteristikasını verən M.Ə.Rəsulzadə yazırdı: “Qızıl Ordu hər yerdə «ÇK»lar təsis edirdi. Bu qanlı «ÇK»lar müdhiş bir surətdə edamlara başladı... Azərbaycanın həqiqi diktatoru cəlladbaşı Pankratov idi. O

cəlladın ismi hər kəsi titrədirdi, edam edilənlərin sayı hər tərəfə dəhşətlərlə yayılırdı. Artıq hər kəs aldandığını görür, «ilanın ağına da, qarasına da lənət» yağdırırdılar.... Xalq Azərbaycan məmələkətinin müdhiş bir istilaya məruz qaldığını acı bir surətdə dərk eyləmişdi <...> hər tərəfdə fəaliyyətə başlayan ÇK-lar gecə-gündüz qanlı işlərinə davam edirlərdi <...> heç bir səbəb olmadan həbslər artırdı... Namus və milliyyət müdafiəsi zühur edirdi...» (14, 68-69).

Göründüyü kimi, Sovet hakimiyyəti orqanları ilk gündən özlərinin qəddar və yırtıcı simasını xalqa göstərdi və bildirdi ki, inqilabi qayda-qanunlara əməl etmək vacibdir və onu pozan hər kəs ciddi cəzalandırılacaqdır. Maraqlıdır ki, özlərinin zorakılıqlarını və soyğunçuluq hərəkətlərini anlayan hakimiyyət orqanlarının bu cür hərəkətlərinin qarşısını almaq, vəzifəli hakimiyyət nümayəndələrinin evlərə soxulub müxtəlif qiymətli əşyalar müsadirə etmək, qız-gəlinlərin, qadınların qızıl üzük, sırğa, boyunbağı, saat, hətta qiymətli geyim paltarlarını əllərindən almaq, evlərdə qiymətli nə varsa, hamısını – xalça, palaz, kilim və digər əşyaları zorla müsadirə etmək əməllərinin dayandırılmasına dair Fövqəladə Komissiyanın əmri verildi (15, 13). Həmin əmrdə deyilirdi ki, əhaliyə qarşı belə zorakılıq hərəkətləri törədənlərə qarşı ciddi cəza tədbirləri görüləcəkdir.

Azərbaycan xalqına qarşı sovet hakimiyyəti orqanları tərəfindən törədilən vəhşiliklər və qəddarlıqlar dayanmadı, əksinə daha da genişləndi, Bakıda və respublikanın demək olar ki, hər yerində rəhmsizcəsinə davam etdirildi, kütləvi repressiyalar və güllələnmə haları xalqın qəzəb və nifrətini coşdurdu. Buna görə də 1920-ci ilin may-iyun-iyul-avqust-sentyabr aylarında Gəncədə, Tərtərdə, Şuşada, Qarabağda, Zaqatalada, Qaxda, Quba, Dəvəçi, Qusar, Astara, Lənkəran, Şamxor, Qazax, Səlyan və başqa yerlərdə güclü üsyanlar baş verdi. Üsyan etməyən bir yer qalmamışdı. (M.Ə.Rəsulzadə) Sovet hakimiyyətinə qarşı çıxan bu qüvvələr «bandit» yox, öz şərəfi və ləyaqətini, milli hisslərini, var-dövlətini və fiziki mövcudluğunu qoruyub saxlamaq uğrunda döyüşən mübarizlər (9, 52), milli-azadlıq hərəkatının qorxmaz iştirakçıları, müstəqil Azərbaycan dövlətinin yaradılmasının qəhrəman iştirakçıları, namuslu və qeyrətli vətən övladları olmuşlar.

Məhkəməyə cəlb edilənlərin əmlakının müsadirə edilməsi qaydaları haqqında Azərb.XKS-in 1922-ci il 27 iyün və Az.MİK Rəyasət Heyətinin 1922-ci il 12 avqust qərarlarına əsasən insafsız və soyğunçu hərəkətlərin qarşısının alınması bildirildi, XDİK-na adamlarla rəftar edilməsinin yumşaldılması barədə göstərişlər verildi (1, 12,15).

1921-ci ilin iyununda Azərbaycanın bütün zəhmətkeşlərinə, fəhlələrə və kəndlilərə Az.MİK-in müraciətində (1, i.2[a], 11-13) qeyd edilirdi ki, inqilabi qayda-qanunçuluğun möhkəmlənməsi, vətəndaşların sosial-iqtisadi və siyasi həyatının və təsərrüfat fəaliyyətinin mühafizə edilməsi, iqtisadiyyatın bərpa və inkişafı mühüm vəzifələrdəndir və Az.MİK-ə edilən hər bir şikayətə diqqətlə baxılacaq, vicdanla və ədalətlə həll ediləcəkdir. Çünki fəhlə-kəndli hökumətinin qarşısında qoyulan sovet quruculuğunun möhkəmlənməsində həmin vəzi-

fələr əsas vəzifələrdir.

Sovet hakimiyyəti möhkəmləndikcə adamların kütləvi həbs edilməsi də artırdı. «Qırmızı» cəllad Pankratovun rəhbər olduğu XI Ordunun Xüsusi şöbəsi tərəfindən Bakıda və Azərbaycanın digər bölgələrində olan bölmələrində sayı bilinməyən uzun-uzadı «Sovet hakimiyyətinin düşmənləri»nin siyahıları tərtib olunurdu. Sonralar XI Ordunun Xüsusi şöbəsini Fövqəladə Komissiya (ÇK-черезвычайная комиссия) ondan sonra isə Baş Siyasi İdarə (QPU – Главное Политическое Управление) əvəz etdi. Fövqəladə «üçlüklər» isə 20-30-cu illərdə daimi fəaliyyət göstərən cəllad təşkilatları olmuşlar. Həmin üçlüklər BSİ-nin tapşırılqarına əməl edərək azərbaycanlı əhaliyə qarşı amansız qırmızı terror təşkil etmişdi. Əgər əvvəllər vətəndaşları tək-tək həbs edib güllələnməyə məhkum edirdilərsə, 30-cu illərdə bütöv «siyahılar» tərtib edirdilər. Belə qara «siyahılara» düşən adamlar sorğusuz-sualsız məhv edilirdilər. Ən yaxşı halda cəmi-cümlətanı 15 dəqiqəlik oyuncaq məhkəmə prosesi qurulurdu.

Baş Siyasi İdarə tərəfindən hazırlanmış materiallardan (2, i.44, 7-8) görünür ki, 1930-cu ildə Azərbaycanda siyasi vəziyyət xeyli kəskinləşmiş, sinfi mübarizə güclənmiş, antisovet çıxışlar artmışdı. Hətta Sovet hakimiyyətinə qarşı açıq silahlı mübarizə hərəkatları qüvvətlənmişdi. Qəribədir ki, kənddə yaranmış belə mürəkkəb siyasi vəziyyətin əsas səbəbkarı yerli hakimiyyət orqanlarının boynuna qoyulur və onların təbliğat işinin zəif aparılması ilə əlaqələndirilirdi. Ancaq mərkəz anlamırdı ki, kənddə yaranan gərgin vəziyyətin və sinfi mübarizənin kəskinləşməsinin başlıca günahkarı məhz o özüdür. Ermənilərdən ibarət yaradılan «troykaların» tərtib etdikləri uzun-uzadı siyahılara heç bir günahı olmayan insanların daxil edilməsi sonrakı günlərə vahimə dolu xəbərlər yayırdı. Satqınlıq və xəyanət baş alıb gedirdi. DQMV-də, Naxçıvanda, Şamxorda, Gəncədə, Səlyanda, Ağdamda, Ucarda (2, i.44, 9-11) və b. yerlərdə açıq silahlı çıxışlar daha da güclənirdi. BSİ-nin mərkəzə ötürdüyü gizli sənədlərdə «təklif» olunurdu ki, onların sərəncamlarına əlavə silahlı qüvvələr göndərilsin, adı çəkilən rayonlarda RİK-lərin sədrləri dəyişdirilsin, kəndə yeni «kadrlar» göndərilsin, bütün «cinayətkarlar» məhkəməyə verilsin, yerli milis orqanlarının tərkibi təcili dəyişdirilsin. ÜİK (b) P ZÖK-ün AK (b) P MK-ya göndərdiyi 1930-cu il 15 iyün gizli sənədində tapşırılırdı ki, Nuxa-Zaqatala, Kürdüstan-Zəngəzur və Gəncə qəzalarında olan «bandit qruplarını» darma-dağın etmək üçün əlavə silahlı qüvvə göndərilsin (2, i.44, 24-25).

Yaramaz və satqın «troykaların» siyahıları əsasında Naxçıvanda 1930-cu ilin oktyabrında 51 nəfər hərəkat iştirakçısı, 27 nəfər təsərrüfat rəhbəri güllələnmiş, 38 nəfər həbs edilmiş, Şahbuz, Ordubad, Noraşen və Naxçıvan RİK sədrləri, bir çox kənd Sovetləri sədrləri dəyişdirilmişdi (2, i.953, 16). 1935-ci ildə aparılan yoxlamalar nəticəsində 1720 nəfər partiiyadan çıxarılmışdı (2, i.953, 5).

ÜİK (b)P MK və MNK-nın birləşmiş Yanvar Plenumunun (1933-cü il) qərarından sonra kolxozların təşkilat-təsərrüfat və siyasi cəhətdən möhkəmləndirilməsinə diqqət artdı. İttifaqın hər yerində olduğu kimi, Azərbaycanda da

kolxozların möhkəmləndirilməsi işində siyasi məsələlərə üstünlük verildi. Kolxozları «yad elementlərdən» təmizləmək məqsədilə Siyasi şöbələr yaradıldı və onlara xüsusi səlahiyyətlər verildi. Siyasi şöbələrin köməyi və yerli hakimiyyət orqanların rəhbərliyi ilə kolxozlarda «təmizlik» işləri aparılmağa başlandı. 1933-cü ilin 3 ayı ərzində (iyun, iyul, avqust) Naxçıvan MSSR-in 209 kolxozunda «təmizlik» aparıldı. Nəticədə 131 nəfər briqadir, mühasib, kassir, 307 nəfər anbardar işdən çıxarıldı (8, 54). Yoxlama komissiyası Gəncə, Şamxor, Cəlilabad, Bərdə və başqa rayonlarda da aparılırdı. Xalq nəzarət Komissiyasının müfəttişliyi tərəfindən Azərbaycanın 1079 kolxozunda yoxlama aparılmış, 633 nəfər işdən çıxarılmış, 141 nəfər məhkəməyə verilmiş, 131 nəfər kolxozdan çıxarılmışdı.

Ümumiyyətlə, 1933-cü ildə respublikanın 2354 kolxozunda «təmizlik» aparılmış, 5193 nəfər belə haqsız yoxlamanın qurbanı olmuşdur (8, 67).

AK (b) P MK-nın 1937-ci il 4 avqust tarixli iclasında kolxoz quruculuğuna mane olan «təxribatçı ünsürlərin» və diversiya ilə məşğul olan düşmənləri məhv etmək üçün xüsusi məsələ müzakirə edilmiş, Az.MİK-ə və XKS-ə ciddi tapşırıqlar verilmişdi (2, i.475, 32). Həmin tapşırığa uyğun olaraq Az.MİK və XKS Naxçıvan MSSR, Zəngilan, Cəbrayıl, Karyagin (Füzuli), Biləsuvar, Astarxanbazar (Cəlilabad), Masallı, Astara və başqa sərhəd rayonlarında gediş-gəlişi qaydaya salmaq, pasportlaşma işini və sərhəd zonasını möhkəmlətmək barədə olduqca ciddi və sərt bir qərar qəbul edildi (2, i.475, 44-45).

Belə bir qərarın qəbul edilməsi təsadüfi deyildi. Ona görə ki, kolxozlara girmək istəməyən minlərlə kəndli gecələr Azərbaycanı tərk edib, Türkiyəyə, İrana və başqa ölkələrə gedirdilər. Məhz bu köçün qarşısını almaq üçün hökumət belə ciddi addım atmaq zorunda qalmışdı.

AK (b) MK Bürosunun 1937-ci il 5 noyabr iclasında 279 nəfər partiyadan xaric edildi (2, i.478, 4). 1938-ci il fevralın 4-də olan iclasında isə «kommunistlərin partiyadan çıxarılması haqqında ayrı-ayrı partiya təşkilatlarının buraxdığı səhvlər haqqında» məsələ müzakirə edilmiş, 9 bənddən ibarət qərar qəbul edilmişdi (2, i.478, 5-6). Həmin qərarda göstərilirdi ki, kommunistlərin fərdi işləri müzakirə olunarkən ciddi araşdırılmalı, fərdi yanaşılmalı, obyektiv və subyektiv amillər dərindən təhlil edilməli, sonra qərar çıxarılmalıdır. Bu məqsədlə AK (b) P MK-da və BK-da xüsusi üçlüklər yaradılması qərara alındı. Həmin qərara M.C.Bağırov özü imza qoymuşdu (2, 478, 5-6).

Adamların tutulması və ləkələnməsində «troykalar» həlledici «rol» oynayırdılar. Satqın «troykalar» tərəfindən həbs edilən günahsız adamların işinə baxılarkən bəzən onların günahsızlığı üzə çıxırdı. Məs., AK (b) P MK-nın 1938-ci il yanvarın 28-də olan iclasında 2838 işə baxılmış, onlardan 1372 nəfər bəraət almış, partiyaya bərpa olunmuşdu (2, i.478, 5-6).

AK (b) P MK-nın 1938-ci il 3 mart tarixli Büro iclasında Az.MİK Rəyasət Heyətinin vəzifəli işçilərinə töhmət verilmiş, Səməd Vurğunun «işini» yoxlamaq üçün 5 nəfərdən ibarət komissiya yaradılmışdı (2, i.489, 91).

Günahsız adamların ləkələnməsində, onlara ağır partiya cəzalarının

verilməsində AK (b) P MK-nın mart Plenumu (19-20 mart, 1937-ci il) daha dəhşətli oldu. Plenumda M.C.Bağırov təqribən 2 saat yarım çıxış etdi. Onun çıxışının mətni 67 makina səhifəsi həcmindədir (2, i.100, 1-67). Çıxışın tam mətninin diqqətlə araşdırılması zamanı bizə aydın olur ki, o, əvvəldən axıra qədər tənqid ruhunda, görkəmli partiya və dövlət xadimlərini «ifşa etmək» və ləkələmək ruhunda yazılmışdı. Bir tədqiqatçı kimi, şübhə etmirik ki, çıxışın mətnini M.C.Bağırov şəxsən özü hazırlamış, yaxud da diktə etdirmişdi. Məruzənin mətnində Trotski-Buxarin-Rıxov-Tomski platforması kəskin tənqid edilir, sovet demokratiyasının dərinləşməsi, Sovet hakimiyyətinin möhkəmlənməsi, proletariat diktaturası orqanlarının güclənməsi, Stalin Konstitusiyası təriflənir sovet ideologiyası tərif edilir, yəqin ki, bu tərif də zamanın hökmü idi – N.M.). Məruzədə M.Ə.Rəsulzadənin ünvanına böhtançı ifadələr işlədilir, müsavatla və trotski-zinovyevçilərlə əlaqə saxlamaqda ittiham edilənlər – Ruhulla Axundov, B.Çobanzadə, Qubaydulin, M.D.Hüseynov, Cəbiyev, Əli Kərimov, S.M.Əfəndiyev, Səməd Vurğun və b. siyasi sayıqlığını itirməkdə təqsirli bilinirlər. Çıxışında M.C.Bağırovdan bir sitat: «...Mən birinci katib kimi, bir çox siyasi səhvlərə yol vermişəm..., vaxtında Ruhulla Axundov, Həsən Səfərov, Mikayıl Hüseynov və b. kimilərinə cəza verməmişəm. Ancaq indi onlar cəzalandırılmAlıdırlar...» (2, i.100, 41-44). Məruzəsində M.C.Bağırov eyni zamanda obyektiv və sanki «ədalətin bərpası» kimi fikirlər də söyləmişdi ki, bu da diqqətimizdən yayınmadı. Belə ki, BK-nın katibi vəzifəsində işləyərkən L.Mirzoyanın anti-azərbaycan fəaliyyəti kəskin pislənilirdi. Məruzədə deyilir: «...Mirzoyan vəzifədə olarkən bir çox azərbaycanlı ziyalı və mütəxəssisləri Urala sürgün etdirmişdi, oradan da Qazaxıstana göndərilmişdilər. Bununla da Mirzoyan onları Azərbaycandan uzaqlaşdırdıqdan sonra özünə yaxın adamları (çoxusu erməni) rəhbər vəzifəyə gətirmişdi. Sürgün olunanlar içərisində Teymur Əliyev (1922-ci ildə Azərb. XKS sədrinin müavini) də olmuşdu. Mirzoyanın quyruğunda 100 nəfərdən çox öz adamı var idi. Onların çoxu erməni «ataman» idi...» (2, i.100, 64-65). Bu plenumda 13 nəfər, o cümlədən Məmməd Cuvarlinski, Muxtar Hacıyev və b. işdə yol verdikləri «ciddi nöqsanlara» görə partiyadan çıxarıldılar.

M.C.Bağırov və onun quldur dəstəsi «Azneft»in kadrlarına ağır zərbə vurdular. Saxta yolla təşkil edilən ittihamnamələr əsasında «Xəzər gəmiçiliyi»ndə 3300 nəfərə cəza verilmiş, 180 nəfər güllələnmişdi. İdarənin siyasi şöbə rəisi Həsən Rəhmanov, onun qardaşı Azərb. XKS sədri Hüseyn Rəhmanov da amansızcasına güllələnmişdilər (11, 28 avqust, 1988).

Buna oxşar gecə reydləri İsmayıllı, Əli Bayramlı, Cəbrayıl, Astarxan-bazar, Qonaqkənd və başqa rayonlarda da keçirilmişdi. 1937-ci ildə Azərbaycanda «xalq düşməni» kimi 29 min nəfər güllələnmiş və ya Sibirə sürgün edilmişdi. İsmayıllı rayonu Kürdmaşı kəndinin bütün kolxozçuları kütləvi şəkildə həbs edilmiş, onlardan 63 nəfəri güllələnmişdi. Bağırovun cinayətkar komandasının qatilləri tərəfindən həyata keçirilən vəhşiliklər nəticəsində 300 nəfərdən çox rəhbər partiya və sovet işçisi, o cümlədən, 66 mühəndis, 88 nəfər

hərbiçi zabit və komandir, 8 professor və bir çox vicdanlı və namuslu insanlar həbs edilmiş, güllələnmiş və ya sürgün edilmişdi (13, 137).

Stalin-Bağırov siyasi rejiminin Azərbaycan xalqına qarşı amansız rəftarı onların erməni-ruslardan ibarət qəddar cəza komandası İttifaqın digər bölgələrinə nisbətən respublikamızda daha amansız formada tüğyan edirdi. Bəzi hesablamalara görə 1937-ci ildə Azərbaycandan 100 mindən artıq adam sürgün edilmişdi (5, 384). Ancaq bu rəqəmlər də son hədd deyildi. Xalqımıza qarşı kütləvi repressiya, ölüm, işgəncə və məşəqqətli sürgün həyatı davam edirdi. Partiya və hökumət orqanlarının gözü qarşısında Azərbaycan xalqının say-seçmə övladları – istedadlı şairlər və yazıçılar, tanınmış ədəbiyyat və incəsənət nümayəndələri, görkəmli partiya və dövlət xadimləri, hörmətli el ağsaqqaları, kənd fəalları, təsərrüfat qabaqcılları bir ucdan tutulur, həbs edilir, güllələnir və ya Sibirə, Qazaxıstana sürgün edilirdilər. 1937-38-ci illərdə 3 milyondan bir az çox olan Azərbaycanda 20 mindən çox nəfər güllələnmiş, 200 mindən çox adam sürgün edilmişdi (7, 162); yəni əslində hər 12-13 nəfərdən biri repressiyanın qurbanı olmuşdu.

Akademik Ziya Bünyadovun hesablamalarına görə 1937-1938-ci illərdə təkcə Bakıda 70 mindən çox adam güllələnib. 1920-ci ilin aprel işğalından 1938-ci ilə qədər 250 min (kişi) nəfər güllələnib. Buraya sürgün edilənlər, konslagerlərə göndərilənlər, həbs edilən qadınlar daxil deyil. Nə qədər adam sürgünə göndərilib, hələ onların miqdarı məlum deyil (4, 26 aprel 1991-ci il).

AK (b) P MK-nın 1937-ci il oktyabrın 22-də olan Plenumunda 24 nəfər rəhbər vəzifədə işləyənlər «xalq düşməni» kimi, partiyadan çıxarıldı (2, i.100, 134-135). Onların içərisində Qəzənfər Musabəyov (Zaqafqaziya XKS sədri), Hüseyn Rəhmanov (Azərb. XKS sədri), S.M,Əfəndiyev (Az.MİK-in Sədri), Müzəffər Nərimanov (BK-nın 2-ci katibi), Qambay Vəzirov (77-ci Azərbaycan diviziyasının komandiri), Heydər Vəzirov (Azərb. Xalq Torpaq komissarı), İsmayıl İsmayılov (Az. K (b) P MK-da k/t müdiri), Maqsud Məmmədov (Az.K (b) P MK-da Elm və Təhsil şöbə müdiri), Həsən Rəhmanov (Kaspar siyasi şöbə rəisi), Məmməd Xasayev (Salyan RİK sədri), Məlik Yaqubov (Astarxanbazar RPK-nin 1-ci katibi), Məmməd Cəbrayılov (Ordubad RK katibi) (2, i.100, 134-135) var idi. O zaman biz «… gənclərin böyük ehtiram etdiyi, respublikamızın ağsaqqalı olan S.M.Əfəndiyevin həbs edildiyini eşitdikdə elə sarsıldıq ki, günlərlə özümüzə gələ bilmədik. Daha sonra H.Sultanovun, D.Bünyadzadənin, Q.Musabəyovun, ağlına və idrakına az qala səcdə etdiyimiz R.Axundovun həbsi bizim üçün əzaba çevrilirdi…» (12, 111).

AK (b) P Mk-nın mart (1938-ci il) Plenumunda 26 nəfər rəhbər vəzifədə işləyən «xalq düşməni» adı ilə partiyadan çıxarıldı. Onların içərisində Məmməd Cəfərov (Ordubad RK katibi), Qurban Mustafayev (Kirovabad Şəhər PK katibi), Davud Rəsulzadə (Nəşriyyatın direktoru), Məmməd Əfəndiyev (Xalq Maarif komissarı) (2, i.103, 15) və b. var idi.

30-cu illərin ölüm siyahılarına diqqət verəndə insan şüuru dəhşətə gəlir. Belə nəticəyə gəlmək olur ki, bolşevik-daşnak hökumətinin başlıca məqsədi

sistemli-planlı şəkildə Azərbaycan xalqına qarşı qlobal miqyasda əsil soyqırım siyasəti aparmaq olub və xalqımızın gen fonduna amansız zərbə vurmaqla genosid siyasət həyata keçirib. Necə fəryad etməyəsən, ilahi, bu qədər insanı kütləvi şəkildə necə qırmaq olar, necə güllələmk olar? Özü də hər gecə. Bu insan cəlladları adamları kütləvi şəkildə öldürməkdən doymurdularmı? Hələlik başa çatmayan həmin ölüm siyahısına ancaq arxiv sənədlərində olan materiallar daxil edilmişdir. Təxmini hesablamalara görə 40 milyon nəfər Stalin repressiyasının qurbanı olmuşdur (16, 61). Bitməmiş siyahı üzrə tədqiqatlar davam edir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi, f.379, siy.3. iş 2a.
2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi yanında Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi, f.1, siy.74, iş 126.
3. ARPİİ SPİHDA, f.1, siy.231, iş 5.
4. “Azadlıq” qəz. 26 aprel 1991-ci il
5. Azərbaycan tarixi. 7 cilddə. VI c., Bakı: Elm, 2000, 516 s.
6. Bünyadov Z. Qırmızı terror. Bakı: Azərnəşr, 1993, 332 s.
7. Cəfərov C. Azərbaycan kəndi: kollektivləşmə illərində (1920-ci illərin sonu -30-cu illər). Bakı: Elm, 2008, 299 s.
8. Gürcüstan Respublikası Mərkəzi Dövlət Arxivi, f.804, siy.1, iş 4587
9. İbişov (İbrahimli) F. Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-1930). Bakı: Mütərcim, 1996, 168 s.
10. İsmayılov E., Həsənov C. Kölgə, arxivlər açılır // «Ədəbiyyat və incəsənət» qəz., 3 iyun, 1988.
11. «Kommunist» qəz., 28 avqust, 1988
12. Qılman İlkin. Şəxsiyyət. Bakı: Şur, 1995, 175 s.
13. Məhərrəmov N. Getsin, gəlməsin…. Bakı: Azərnəşr, 1992, 144 s.
14. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, 116 s
15. Декреты Азревкома (1920-1921гг). Баку: Азернешр, 1988, 519 с.
16. Мамедов А. Час «икс» переворота М.Д. Багирова и Л.П. Берии. Баку: МВД, 2005, 319с.


## ПОЛИТИКА МАССОВЫХ РЕПРЕССИЙ ОРГАНОВ ВЛАСТИ


### Н.З.МАМЕДОВ


### РЕЗЮМЕ


В статье на основе фактов исследуется политика репрессии Советской власти после Апрельского переворота против интеллигенции и и национальных кадров Азербайджана, преследование, арест и расстрел десятки тысяч невинных людей. На основе изучения списка невинных жертв 30-х годов XX века можно придти к такому выводу, что главная цель большевистко-дашнакского правительства было планированное уничтожение азербайджанского народа в глобальном масштабе. В 1920-30-х годах в Азербайджане было расстреляно более 250 тысяч человек. Это ностоящий геноцид азербайджанского народа.



**Ключевые слова:** азербайджанский народ, органы власти, карательные органы, преследование, репрессии, геноцид, невинные люди

## THE POLICY OF MASS REPRESSION OF STATE ORGANS

**N.Z.MAMMADOV**

**SUMMARY**

The presented article studies the cruel repression policy of Soviet ruling organs against local intellects and personals of the Azerbaijani people, after the April revolution arrests and shoting of ten thousands of innocent people. The study reveals that the list of the victims of the 30s is horrifying. We can come to such a conclusion that the main aim of Bolshevik-Dashnak government was to carry out the policy of genocide on global scale against the Azerbaijani people. According to the investigation, more than 250 thousand people were killed in Azerbaijan. This is the policy of genocide against our people.

**Key words:** The Azerbaijani people, ruling organs, punishment organs, repressions, genocide, innocent people.